http://doi.org/10.58225/sw.2024.2-12-21

DAĞILMIŞ ŞƏHƏRLƏRİN İNKİŞAFINDA MÜASİR YANAŞMALAR VƏ VİSUAL OBRAZ

Bəkirova Təranə Şaiq qızı- dosent, memarlıq üzrə fəlsəfə doktoru, Memarlıq fakultəsi, Qrafik və media dizaynı kafedrası, AzMİU, taranabakirova@gmail.com
Suleymanova Sevda Qurban qızı -baş müəllim, AzMİU, Mühit dizaynı kafedrası, Bakı, suleymanovasevda6@gmail.com.

Xülasə. Məqalədə, şəhərlərin müharibə şəraiti ilə üzləşməsi və onların yenidən qurulma prosesi əsasında müasir yanaşma prinsiplərinin və vizual obrazın bərpası haqqında fikirlər əks edilmişdir. Şəhərlərin bərpası zamanı digər şəhərlərdən götürülmüş təcrübələr və müasir tendensiyaların nəzərə alınması və şəhər strukturundakı yeni tələbatların müasir texnologiyalar ilə həll edilməsi vacibdir. Məsələn, turizmin inkişafını nəzərə alaraq müasir şəhərlər üçün aktual olan yanaşmaların istifadəsi mövcuddur. Şəhərlərin yenidən qurulması zamanı müasir tələblərə uyğun olaraq hər şəhərin özünün mədəni və estetik dəyərlərini nəzərə alaraq yeni obraz yaratmaq vacibdir. Bu məsələlərə baxarkən, şəhərlərin tarixi yaddaşının müasir standartlara uyğun formalaşdırılması, yeni şəhər konsepsiyasının qurulması, müasir mühəndis texnologiyalarının və innovativ sistemlərin tətbiqi ilə uyğunlaşması mühüm rol oynayır. Məqalə Zəngilan və Kəlbəcər rayonlarındakı şəhərlərin müharibədən sonra yenidən qurulması prosesinə baxır. Bu şəhərlər, Azərbaycanın 30 il ərzində əsarət altında qalan bölgələridir. Məqalə müharibədən əvvəl və sonra ərazilərə vurulan ziyanların təhlili ilə şəhərin 20 il ərzində inkişaf təklifləri ilə məşğul olur.
Açar sozlər: yenidən qurulan şəhərlər, şəhər obrazı, müharibədən sonrakı şəhər mühiti

MODERN APPROACHES AND VISUAL IMAGE IN THE DEVELOPMENT OF DESTROYED CITIES

Bakirova Tarana Shaig- ass.prof., PhD in architecture, department of Graphic and media design, AzUAC, taranabakirova@gmail.com
Suleymanova Sevda Kurban- senior lecturer, department of Environmental Design, AzUAC, suleymanovasevda6@gmail.com.

Abstract. This article explores the principles and restoration of visual images based on the challenges cities face during wartime and their rebuilding processes. It emphasizes the importance of considering experiences from other cities, incorporating modern trends, and addressing new demands in city structures using contemporary technologies. For instance, approaches relevant to modern cities are employed, considering the development of tourism. During the reconstruction of cities, creating a new image is crucial, considering the cultural and aesthetic values of each city in line with contemporary requirements. Examining historical memory in cities, conforming it to modern standards, establishing new city concepts, and aligning with modern engineering technologies and innovative systems play significant roles. The article primarily focuses on the rebuilding process of cities in the Zangilan and Kalbajar regions after the war and the analysis of damage inflicted on the territories before and after the war, development proposals for the city over 20 years.
Keywords: rebuilt cities, urban image, post-war urban environment

Giriş. Şəhərlər ən mühüm strateji obyektlərdir və bir çox hallarda onların özünüqoruma cəhətləri yalnız siyasi və hərbi müdafiəsi deyil, eyni zamanda strateji baxımdan daha vacibdir. Şəhərin yaşayış hissəsinin memarlıq formaları təkcə siyasi, iqtisadi, maliyyə, elmi və mədəniyyət mərkəzləri kimi deyil, həm də müasir iqtisadi məsələləri həll edən və investisiyaların cəlb edilməsinə əlverişli şərait yaradan, inkişafda olan ərazi qurumlarıdır. Yenidən qurulan şəhərlər çox

vaxt "smart şəhərlər" kimi tanımlanır. Bu, informasiya texnologiyaları və kommunikasiya vasitələri ilə təchiz edilmiş şəhərlərdir. Ağıllı quraşdırmalar, sensor sistemləri və verilənlərin effektiv şəkildə idarə edilməsi ilə birlikdə, insan həyatını daha asan və rahat etməyə nail olmağı hədəfləyirlər. Lakin şəhərlərin yenidən qurulması eyni zamanda onun iqtisadi mərkəzlər kimi inkişafını düşünmək, sonrakı illər üçün mühafizəsi baxımından müasir texnologiyalarla təmin edilməsi, vəziyyətinin bərpası anlamı kimi də qəbul edilir [18]. Əlbəttə şəhərlərin yenidən qurulması zamanı şəhər obrazının və simasının formalaşması, insan faktoru, təbii resurslardan istifadə, şəhərin təhlükəsizliyi nəzərə alınmalıdır. Şəhərsalma təhlükəsizliyinin vəzifəsi yaşayış ərazilərində həyat fəaliyyətinin əlverişli şəraitinə nail olmaqdır [13,16].

Şəhərlərin dağılması səbəblərindən biri də təbii fəlakətlərdən fərqli iz qoyan müharibələrdir. Müharibə anlayışı və onun vurduğu zərər bir çox tədqiqatçılar tərəfindən müxtəlif izahlarla təsvir edilmişdir. Məsələn, Vasques sözlərinə görə, "Müharibəni iğtişaşlardan, inqilablardan və hər yerdə baş verən zorakılıqdan ayırmaq asandır" [21]. Vasques müharibənin yaratdığı mürəkkəbliyə necə yanaşılmasını tədqiqatlarında izah etmiş, psixologiya, antropologiya, siyasət və sosiologiya sahələrində müxtəlif müəlliflər tərəfindən öyrənilən bu terminin bir çox təriflərini təhlil etmişdir. O, həmçinin sosial komponentləri müharibə ilə əlaqələndirmişdir: "nəzərdə tutulan müharibə, tarixin məhsuludur- müəyyən bir dövrün inancları, formal və qeyri-rəsmi qanunların məhsuludur", "müharibə- sosial ixtiradır...", fikrini vurğulayır [21]. Bundan əlavə müharibənin ilk növbədə şəhərlərin dağılmasına, şəhər infrastrukturun pozulması ilə yanaşı ənənənin unudulmasına gətirib çıxaran bir amil olduğunu qeyd etmişdir. Bu tədqiqatın məqsədi müharibə keçmiş şəhərlərin bərpası zamanı tarixi təcrübələrə əsaslanan inkişaf modellərini təhlil etmək, dəfələrlə müharibə təsirinə məruz qalan şəhərlərin konseptual strategiyası ilə yenidən qurulmasının təklif edilməsidir, 1920-cı ildən 2021-ci ilədək olan dövrdə Azərbaycanın Qarabağ zonasında Kəlbəcər və Zəngilan rayonlarının mərkəzi şəhərləri timsalında aparılan inkişaf modellərinin təklif edilməsi, mövcud məlumatlardan istifadə etməklə yenidənqurulma prosesini təhlil etməkdir. Xüsusilə, bu təhlil əsasında Azərbaycanın Qarabağ bölgəsində inkişaf planının mövcudluğunu qiymətləndirməkdir.

Tədqiqatın məqsədi müasir dövrdə müharibə şəraiti ilə üzləşən şəhərlərin müharibədən sonra yenidənqurulması zamanı yeni tendensiyaların nəzərə alınması, sosial təbəqənin həyat tərzini və mədəniyyətini şəhər mühiti obrazında əks etdirməkdir. Araşdırma əsasən Azərbaycanın müharibə şəraitini yaşayan şəhərlərində əvvəlki dövrlərdə mövcud olmuş şəhər şərtlərinin infrastrukturunu və xidmətlərinin bərpa edilməsi, dağıntıların həcmini müəyyənləşdirərək, Kəlbəcər və Zəngilan şəhərlərinin innovativ infrastrukturlarını və sahibkarlıq fəaliyyətini inkişaf etdirmək üçün praktiki tövsiyələr verməkdir.

Tədqiqat metodları arasında sistemli yanaşma, statistik təhlil, proqnozlaşdırma, ehtiyatların müəyyənləşdirilməsi və tədqiq olunan regionda şəhər mühitinin infrastrukturunun yaradılması və iqtisadiyyatın dirçəldilməsi üzrə tədbirlər kompleksinin işlənməsi üçrə müəllif yanaşmasının tətbiqi yer alır.

Müharibədən əvvəl və sonrakı şəhərlərin vəziyyəti. Tarixdən məlumdur ki, müharibə keçmiş şəhərləri bərpa etmək, onları əvvəlki vəziyyətlərinə qaytarmaq, əhalinin sosial problemlərini həll etmək hər bir dövlətin məqsədi kimi qarşısında durur. Məsələn, II Dünya Müharibəsi sonrası (1941-1945-ci illələr) dağılmış şəhərlərin və yaşayış məntəqələrinin bərpası üçün ölkədə memarlıq işləri üzrə təşkilatlar yaradıldı. 70-dən çox şəhər, qəsəbə və kənd, yaşayış mühitini əlverişli vəziyyətə qaytarmaq üçün işlər görüldü. 1943-1944-cü illərdə əsas ziyan görmüş şəhərlərin, məsələn, Volqoqrad (Stalininqrad), Kiyev, Smolensk, Voronej, Novqorod, Kalinin kimi şəhərlərin bərpası üçün işlər başlandı (5). Yeni şəhərsalma inkişaf planı çərçivəsində ilk növbədə zədələnmiş şəhər binalarının və (Drezden və Volqoqrad (Stalingrad) şəhərlərində 90%, Minskdə 89% dağılmış yaşayış evlərinin) yaşayış evlərinin bərpası, tarixi ərazilərin inkişafı nəzərdə tutuldu [19]. Armine Pilovun "şəhər döyüş meydanıdır" fikri ilk növbədə 1980-ci illərdən başlayan şəhərlərin və onların sakinlərinin həyatına təsir edən davamlı təhlükələri, yeni terror hücumları və şəhərlərdə aparılan müharibələri, onun yaratdığı fəlakətləri təsdiqləyirdi. Stephen Graham sözlərinə görə, Sarayevodakı müharibə (1992-1996), Çeçenistanda (1994), Gürcüstanda və Cənubi Osetiyada (2008), eləcə də İsrail və Fələstində davam edən dəhşətli hərbi mübahisə və müharibələr urbanizasiya ilə bağlı

münaqişələrdə əhəmiyyətli yer tuturdu [2]. Şəhər ümumiyyətlə, insanların gündəlik həyatını, əsas təcrübələrini təsvir edən, bu baxımdan təhlükəsiz, davamlı və ekoloji cəhətdən davamlı olmalıdır. Müharibənin nəticələri şəhərin effektiv funksiyalarını dəyişdirir. Bu baxımdan Azərbaycanın Qarabağ bölgəsində baş verən müharibə, ən çox şəhər vətəndaşlarının həyatını gözlənilmədən dəyişdirib. Şəhərin yeni infrastrukturunun yaradılması, ərazinin bərpası və inkişafını nəzərə alaraq, gündəlik həyatın təhlükəsiz olmasını təmin etmək üçün ictimai nəqliyyat, su, qaz və elektrik təchizatı kimi əsas şəhər funksiyalarını bərpa etməli idi. Əsas məqsəd, şəhərin müharibə nəticəsində pozulmuş infrastrukturunun bərpası və sosial-iqtisadi inkişafını təmin etmək idi. Bu proses ictimai həyatın pozulmasına, urbanizm infrastrukturunun dağılmasına səbəb oldu. Bu dağılmış şəhərlərin planlaşdırma strategiyalarının müharibədən əvvəlki risklərini nəzərə alması və müharibədən sonrakı bərpa şərtlərinə uyğun hazırlanması tələb olunur [4]. Giustina Selvellinin (II dünya müharibəsinin Leninqrad (indiki Sank Peterburq) blokadasına həsr edilmiş və Bosniya müharibəsində Sarayevonun mühasirəsinə həsr edilmiş) öz araşdırmasında dediyi kimi, şəhərlərin dağılması əslində onun yaddaşının dağılmasıdır və bu, abidələrin, evlərin, kitabxanaların və xəstəxanaların itirilməsi, onlarla yanaşı cəmiyyət üçün böyük itkidir [10,8]. Şəhərlərin yenidənqurulması prosesində, müharibə şəraitinə düşmə risklərini azaltmağa nail olmaq və optimal şəhər planlaşdırması təmin etmək mühüm bir məqsəddir. Məsələn, Suriyadakı şəhərlərdə hərbi əməliyyatların nəticəsində zərər çəkmiş yaşayış ərazilərinin bina və qurğularının təhlükəsizliyini təmin edən optimal şəhər planlaşdırması metodikası, gələcəkdə müharibə şəraitinin təkrarlanması ehtimalına qarşı ehtiyatlılığı özündə əks etdirir. Bu, əhalinin və şəhər əmlakının mövcud risklər əsasında minimal itkilərlə bərpası üçün hazırlanmışdır. Yaşayış ərazilərinin bina və qurğularının təhlükəsizliyini təmin edən optimal şəhər planlaşdırılmasının müəyyənləşdirilməsi üçün analitik, müqayisəli və hesablama metodlarından istifadə edilmişdir [24]. II Dünya müharibəsindən sonra bir çox Avropa ölkələri müharibədən əvvəlki risklərin artması və müharibədən sonrakı bərpa şərtlərinə uyğun olaraq şəhər inkişafının perspektivli istiqamətlərini müəyyənləşdirməyə çalışmışdılar. Məsələlərin həlli üçün nəzərdə tutulan qərarlar digər müharibə keçmiş ölkələrdə ardıcıl şəkildə yerinə yetirilməsə də, onlardan fərqli olaraq xüsusilə Böyük Britaniyada şəhərsalma təhsilində mühüm yer tutmuşdu [7]. Bu, şəhərlərin müasir funksiyalarını və infrastrukturunu bərpa etməyi, həm də yaşayış mühitini təhlükəsiz və rahat hala gətirməyi hədəfləyir. Bunun nümunəsi kimi, Kosovonun müharibədən sonrakı şəhərsalma inkişafında The United Nations Human Settlements Programme (UN Habitat) iştirakı və Yaponiyanın müharibədən sonrakı şəhər bərpası göstərilir. Bu ölkələrdə optimal şəhər planlaşdırması və yaşayış ərazilərinin bina və qurğularının təhlükəsizliyini təmin etmək üçün intensiv inkişaf prosesləri tətbiq edilmişdir. Yaponiyanın müharibədən sonra şəhərlərin bərpası, sənayeləşmənin inkişafını təmin etmək üçün intensiv inkişaf prosesinə görə diqqəti cəlb etmişdir. Hakimiyyət, özbaşına tikililərə mane olmadan, yerli sakinləri inkişaf prosesinə cəlb etmiş və nəticədə klassik yapon tikililəri və ultramüasir meydanlar yaradılmışdır. Bu, orta əsr məhəllələrində sürətli və effektiv inkişafı təmin etmiş və əsas şəhərlərdə kiçik biznesin, emalatxanaların və yeni tikililərin inkişafını stimullaşdırmışdır [11]. Yaponiyanın bu intensiv inkişaf modeli, özünəmənsub və sənayeləşmənin təminatını özündə əks etdirərək iqtisadi möcüzə yaratmışdır.

Əlbəttə ki, Azərbaycanın müharibə keçmiş ərazilərində dağılmış şəhərlərin yenidənqurulması məsələlərinin həlli müstəqil bir şəkildə 2020-ci ilin noyabrında münaqişənin başa çatmasından sonra fokuslanmışdır. Bu, müharibədən sonra bərpa və inkişafın effektiv bir şəkildə həyata keçirilməsini və yaşayış ərazilərinin optimal şəhər planlaşdırması əsasında bərpası üçün tədbirlər götürməni təmin etmişdir.Buna əlavə olaraq, bölgənin çiçəklənməsi və inkişaf planlarının hazırlanması, ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi, beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin istifadəsinə böyük təkan verilməsi də vacib məqsədlər arasındadır. Bu tədbirlər, müharibə sonrası ərazilərin inkişafını və bərpasını təmin etmək üçün strateji planlaşdırmanın bir hissəsidir.Nəzərə alsaq ki, Azərbaycanın Qarabağ ərazisi 30 ildir ki, Ermənistan tərəfindən işğal olunmuşdur. Qarabağ, Azərbaycanın ən qədim tarixi vilayətlərindən biridir və ümumi sahəsi 18 min kvadratmetrə çatır. Bu ərazi Ağdam, Kəlbəcər, Laçın, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilan rayonlarını əhatə edir. Qarabağ bölgəsindəki 4,392 kvadrat kilometrlik ərazi, inzibati mərkəzi

Xankəndi şəhəri ilə birlikdə, ən böyük yaşayış məntəqələrini Şuşa, Ağdərə, Xocavənd və Xocalı təşkil edir. Azərbaycan ərazisinin 20 faizini təşkil edən Qarabağ, uzun onilliklər ərzində Ermənistanın işğalı altında qalmışdır. 1916-cı ildə ərazidə yaşayan erməni ictimaiyyəti 242,000 nəfərə çatarkən, azərbaycanlılar isə 322,000 nəfər təşkil edirdi [6]. 1918-ci ildə Türkiyə silahlı qüvvələrinin dəstəyi ilə Dağlıq Qarabağa gəlişi, Azərbaycanın bu ərazi üzərində müəyyən nəzarət yaratmağa nail olduğu bir vəziyyəti yaratdı [https://story.karabakh.center/en/armenian-territorial-claims-to-karabakh#15]. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Sovet Rusiyası tərəfindən işğal edildikdən sonra, Dağlıq Qarabağın erməni ictimaiyyəti regionun Ermənistanla birləşməsini elan etdi [1. səh. 51]. 1992-ci ildə Ermənistan silahlı qüvvələrinin Qarabağın strateji ərazilərini işğal etməsi nəticəsində çoxsaylı bölgələr və şəhərlər işğal olunmuşdur. Bu işğalların nəticəsində Şuşa şəhəri [9], tanınmış Laçın rayonu (zəngin təbii sərvətlər və mineral suları ilə məşhurdur), Xocavənd şəhəri, müalicəvi mineral sulara sahib Kəlbəcər, Qarabağın ən əhəmiyyətli kənd təsərrüfatı mərkəzi olan Ağdərən, Ağdam, Fizuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları və Qarabağın digər bölgələri işğal olunmuşdur. İnfrastrukturun tamamilə dağıdılması ilə birgə (Cədvəl 1,2) 30 il ərzində praktiki olaraq bütün avtomobil və dəmir yollarını dağıdılmışdır, 65 məsciddən 67 yerlə yeksan edilmişdir. [https://m.mia.gov.az/ru/content/29863]. Azərbaycanın dini və tarixi abidələri məhv edilmiş, işğal olunmuş ərazilərdə ermənilər tərəfindən 60 min hektar meşə qırılmış, oğurlanmış və zəhərlənmişdir. Torpaq və çaylar çirklənmişdir. Mütəxəssislərin əvvəlcədən hesablamalarına əsasən, iqtisadi fəaliyyət sahələri üzrə bu ziyan cədvəl 2- də təsvir edilmişdir [3].



Cədvəl 1. Qarabağ müharibəsi nəticəsində Azərbaycana dəyən iqtisadi ziyanın strukturu (Azərbaycan İqtisadiyyat Nazirliyinin məlumatları əsasında tərtib edilib) [3]

Kəlbəcər. Kəlbəcər rayonu 3054 km2 sahəyə malikdir və dəniz səviyyəsindən 2225 metr yüksəklikdə yerləşir. Bu rayonun mərkəzi şəhəri və şəhər tipli qəsəbə (İstisu) ilə birlikdə 145 kəndi əhatə edir. İnzibati rayon statusunu 1930-cu ildə qazanmışdır. Kəlbəcər rayonu 2 aprel 1993-cü ildə ermənilər tərəfindən Azərbaycan ərazisinə hücum edilərək işğal olunmuşdur. İşğal dövründə rayonun 54 mindən çox əhali məcburi köçürülərək digər bölgələrə yerləşdirilmiş, tikililər daəıdılmış və sərvətlər talan edilmişdir (cədvəl 2). Kəlbəcər rayonu 25 noyabr 2020-ci ildə Azərbaycan tərəfindən Ermənistanın işğalından azad edilmişdir.

Cədvəl 2. 1988-1993-cü illərdə Azərbaycan Respublikasına hərbi təcavüz nəticəsində dağıntı və zərərlər [3]

1988-1993-cü illər ərzində Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü nəticəsində dağıntılar və zərərlər			
Yaşayış məntəqələri	900	Muzey eksponatları	40 000
Evlər	150 000	Sənaye və kənd təsərrüfatı müəssisələri	6 000
İctimai obyektlər	7 000	Avtomobil yolları	2 670 km
Məktəb	693	Körpülər	160
Uşaq bağçaları	855	Su əlaqələri	2 300 km
Tibb müəssisələri	695	Qaz rabitəsi	2 000 km
Kitabxanalar	927	Elektrik xətləri	15 000 km

Məbədlər	44	Meşə	280 000 ha
Məscidlər	9	Kənd təsərrüfatı torpaqları	1 000 000 ha
Tarixi abidələr, saraylar və muzeylər	473	Suvarma sistemləri	1 200 km

2019-cu ilin dekabrında "Hetq" nəşrinin yayımladığı məlumata əsasən, 2012-2018-ci illərdə Ermənistanın Azərbaycan tərəfindən işğal olunmuş ərazilərində öz ərazisindən 2,3 dəfə çox meşə kəsilmişdir (Ermənistanda 175,3 mln kubmetr, Dağlıq Qarabağda isə 404,8 mln kubmetr). 2017-ci ildə Qarabağda kəsilmiş meşə miqdarı 102,488 kubmetr olmuşdur.
[https://story.karabakh.center/ru/ekotsid-v-karabakhe].

Şəkil 1. Kəlbəcər düzənliyi və ətrafı (şəkillər:https://www.virtualkarabakh.az/az/post-item/27/98/kelbecer.html). Kəlbəcər şəhərinin istinad planı.1990, 2020. M 1:2000. Kəlbəcərin işğalı zamanı kəsilmiş meşələrin və şəhərin vəziyyəti, 2022 ildə dağılmış görüntüsü. Rza Dekkati [3]

Zəngilan. Zəngilan rayonu, Azərbaycan Respublikası İnzibati rayonu olaraq tanınır. Rayonun ərazisi 0,71 milyon kvadrat kilometr, əhalisi isə 41,6 min nəfərdir (01.01.2020). 1967-ci ildə Zəngilan şəhər statusunu qazanmışdır. Zəngilan rayonunda bir şəhər, beş qəsəbə (Ağ Oyuq, Mincivan, Bartaz, Ağbənd, Həkəri) və 79 kənd yerləşir. Rayonun ərazisi orta və alçaq dağlıq sahədə yerləşir, mürəkkəb və dərəli-təpəli səth quruluşuna sahibdir. 1993-cü ilin oktyabr ayında Ermənistan qoşunları tərəfindən işğal edilənədək əhalisi 32,6 min nəfər (01.01.1989) olmuşdur. İşğal olunan bölgələrdə həyata keçirilən qeyri-qanuni fəaliyyət ciddi ekoloji problemlərə səbəb olmuşdur (https://mfa.gov.az/files/shares/Azercosmos.pdf). A) İşğal olunan ərazilərdə qeyri-qanuni tikililərin və müvəqqəti sosial infrastrukturun tikintisi; B) Təbii ehtiyatların istismarı və talan edilməsi; C) Infrastrukturda daimi dəyişikliklər; D) Kənd təsərrüfatı və su ehtiyatlarının istismarı;
E) Tarixi və mədəni irs daxil olmaqla, dövlət və xüsusi mülkiyyətin məhv edilməsi; F) Ətraf mühitə zərər.

Hal-hazırda işğaldan azad olunmuş ərazilərin bərpası, daha da inkişaf etdirilməsi, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıtması istiqamətində genişmiqyaslı işlər həyata keçirilir. Araşdırmalara əsaslanaraq müharibə nəticəsində və işğal olunduğu müddətdə Kəlbəcər və Zəngilan şəhərlərinin vəziyyəti (Şəkil 1,2) IV dərəcəli tam dağılmaya (Complete destruction) malikdir [20]. Bu məlumatlar işğal olunan ərazilərin bərpasının yeni yanaşmasının müəyyənləşdirməsinə imkan yaradır. Bu yanaşma müharibə nəticəsində şəhərlərin yenidənqurulması strategiyasını, inkişafını nəzərdə tutur. Əlbəttə ki, bu proses şəhərlərdə və ətraf

bölgələrdə şəhərlərin mədəniyyətinə, regional iqtisadiyyatına təsir edəcək, yerli turizmi, yerli sənətkarlığı və kənd təsərrüfatını inkişaf etdirəcək və nəticədə ərazinin konseptual inkişaf layihəsinin yaradılması ilə nəticələnəcək.



Şəkil 2. Zəngilan şəhərinin müharibədən sonrakı infrastrukturu.2020. M 1:25000 [15]

Şəhərin yenidənqurma prosesində vizual obrazın bərpası. Lakin şəhərin bərpası zamanı digər bir məsələnin həlli də nəzərdə tutulmalıdır. Bu tam dağılmış ərazilərin memarlıq mühitini yaradarkən əsas məqsəd kimi əvvəlki mühiti vizual olaraq bərpa etmək və ya müasir cəmiyyətin gözlədiyi mühiti yaratmaq məsələləri ortaya çıxara bilər. Müasir dünyada tədqiqatçılar şəhərlərin spesifikasını dəyişmək tendensiyasını müşahidə edirlər. Bir vaxtlar sənaye şəhərləri dünya arenasına çıxarılaraq postindustrial hesab olunurdu və turistlər üçün cəlbedici olmağa çalışırdı. Lakin, son zamanlar şəhərlərin yaradılması konsepsiyasında əsas olaraq mədəniyyəti və turizmi vizual obrazda əks etdirmək daha mühüm rol oynayır. Şəhərin vizual obrazının yaradılmasından danışarkən, ilk olaraq şəhərin obraz və siması anlayışlarına aydınlıq gətirmək lazımdır. Şəhərin siması anlayışına onun fiziki tərəfi və şəhərin memarlıq sahəsi olan binalar, abidələr və küçələr daxildir. Görünüşün aktiv inkişafı onun dəyişkənliyi ilə və qeyri-sabitliyi ilə xarakterizə olunur. Şəhərin obrazı-şəhərin görünüşünü sakin və ya qonağın dərk etməsindən asılıdır. Bu zaman şəhərin siması şəxsi stereotiplərə və təsəvvürlərə təsir edərək, qavranılma və dərketmə prosesindən keçir. Obrazın nisbətən müstəqil xarakterə malik olmasına baxmayaraq, şəhərin siması ilə əks etdirmə obyekti kimi qarşılıqlı əlaqədə olacaqdır. Bu baxımdan Lixaçev D.S. sözlərinə görə "şəhərin obrazı iki aspektdə qarşımıza çıxır: sinxroniya aspektində onun zahiri görünüşü əyani hal kimi qəbul edilir, diahroniya aspektində şəhərin qavranılması onun tarix kimi qəbul edilməsi, mədəniyyətin formalaşması kimi qəbul edilir" [15].

Şəhərin vizual obrazının nə olduğu ilə bağlı tədqiqatçıların müxtəlif fikirləri vardır. Məsələn, S. V. Pirogov şəhərin vizual obrazını dörd paradiqma ilə vurğulayır: naturalist, strukturalist, konstruktivist və fenomenoloji [17]. K. Linç şəhərin vizual obrazının şəhərin fiziki dünyasının ümumi mental rəsmi olduğunu izah edir [14]. Bu baxımdan müxtəlif insanlarda obraz anlamı fərqlidir. Çünki, obrazın formalaşmasına sosial vəziyyət, təhsil səviyyəsi, yaş həddi kimi xüsusiyyətlər təsir göstərir. K. Linçə görə hər bir insan şəhəri öz təsəvvüründə onun landşaftının detallarına əsaslanaraq qurur. Şəhərin belə obrazları maksimal dərəcədə fərdiləşdirilərək onun təfəkkürdə estetik, ənənəvi, mənəvi vizual obrazının qavranılmasının nəticəsi kimi olur. N. A. Xrenov vurğulayır ki, şəhərin obrazı "Dünyanın mənzərəsi" ilə əlaqələndirilir, vizual obraza ictimai fikrin, kütləvi şüurun vəziyyətini əks etdirən ictimai rəyi kimi baxılmalıdır [22]. Unikal şəhər obrazının formalaşmasının əsas yeri- onun landşaft və təbii şəraiti, əhalisi, ərazinin tarixi, mədəni xüsusiyyətləri və onun görməli yerləri tutur. Beləliklə, şəhər obrazı dedikdə biz onu formalaşdıran

əsas amillər sırasına şəhərin funksional zonalaşması, simvolik elementlərini, yaddaşlarda qalan tikililəri, tikililərin kompozisiyasını, inşaat xüsusiyyətləri, şəhərin tarixi, landşaftını, şəhərsalma xüsusiyyətləri daxil edə bilərik.

Müasir şəhər obrazlarının formalaşmasının ümumi problemlərinə qayıdaraq qeyd etmək lazımdır ki, müharibə keçmiş şəhərlərin yenidən qurulmasında əsas olaraq ənənəvi obrazların transformasiyasını yaratmaq olar və ya hər bir insanın müasir dövrlə əlaqələndirdiyi müasir şəhər obrazını, bəzən ağıllı şəhər anlamı ilə müqayisə edilən obraz yaratmaq mümkündür. İnsanın rahat memarlıq mühitində yaşamasını təmin etmək, şəhər planlaşmasında və onun nəzarət edilməsində ağıllı şəhər obrazının yaradılması da istisna hal deyil. Bu baxımdan şəhərin bir incəsənət əsəri kimi, emosional mühit kimi olması, layihələndirmənin nəticəsi kimi kreativ və ağıllı şəhər kimi təşkil olunması onun vizual obrazının əsas xüsusiyyətlərinin formalaşmasını müəyyənləşdirir. Şəhərin vizual obrazını müəyyənləşdirən xüsusiyyətlərə şəhər mühitinin vizual qavramasının nəticəsi, yalnız subyektin şüurunda yaradılan obraz, müşahidəçinin yaşı, sosial vəziyyətindən asılı qavrama təəssüratı, şəhər mühitinin müxtəlif detalları, onun tarixi, baş verən hadisə aid ola bilər. Bu baxımdan azad edilmiş ərazilərdə şəhər mühiti təmamilə dağıdıldığı üçün yeni infrastrukturun icrası üçün ilk növbədə iqtisadi inkişafı nəzərə alan, tarixi və mədəni xüsusiyyətlərini bərpa edilməsi və şəhərlərin yenidənqurulmasında beynəlxalq standartların nəzərə alınması, müasir şəhər obrazının yaradılması mütləqdir. İlk növbədə şəhərin nəqliyyat infrastrukturunun yaradılması, təbii resursların qorunması, şəhərin əvvəlki mövcud olduğu istehsalat sahəsinin bərpası, dağ-mədən sənayesini, yüngül və qida sənayesini, aqrar sənayeni və kənd təsərrüfatını inkişaf etdirməkdir, şəhərin nəqliyyat və kommunikasiya sisteminin yaradılması, turizmin inkişafı, əhalinin məşğuliyyətini dəstəkləyən kiçik ailə təsərrüfatı və kollektiv fermaçılığı yaratmaq, iş yerlərinin yaradılması üçün istehsal şəraitinin, yaşayış evlərinin və həyətyanı ərazilərinin yaradılmasıdır. Qarabağın iqtisadiyyatını bərpa etmək, keçmiş qaçqın və məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtması üçün hər şeydən əvvəl köhnə yolları bərpa etmək və yeni yollar tikmək lazımdır. Təqdim edilən konsepsiyaya uyğun olaraq Zəngilan və Kəlbəcər şəhərləri üçün yuxarıda göstərilən əsas amillər nəzərdə tutulmuşdur. Əhalinin inkişafını 2040 ilədək və məşğuliyyətini nəzərə alaraq funksional planlaşma nəzərdə tutulmuşdur. Şəhər infrastrukturunun baş plan konsepsiyasında əsas aşağıdakılar nəzərə alınmışdır: infrastrukturun bərpası və inkişafı; şəhər və regionların müasirləşdirilməsi; işğaldan azad olunmuş ərazilərdə əhalinin davamlı məskunlaşdırılmasının təmin edilməsi; əhalinin müasir prinsiplər əsasında yaşaması üçün rahat şəraitin yaradılması; əhaliyə bütün növ xidmətlərin göstərilməsi üçün müasir sosial infrastrukturların yaradılması; rayonların iqtisadi potensialından səmərəli istifadə edilməsi, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarının həyata keçirilməsi və tikintisində kompleksli yanaşma; ölkənin sosial-iqtisadi inkişafında ərazilərin işğaldan azad olunması mövqeyinin bərpası; regionlarda innovativ infrastrukturların - aqroparkların, texnoparkların, sənaye məhəllələrinin, birgə müəssisələrin, klasterlərin, azad iqtisadi zonaların və s. geniş şəbəkəsinin yaradılması; 200-dən 1000-dək insanın məşğul olduğu regionlarda 100-ə yaxın ixtisaslaşmış və qarışıq aqropark təşkil etmək; regionların inkişafı; yerli resurslardan səmərəli istifadə; regionların sosial-iqtisadi və mədəni səviyyəsinin davamlı inkişaf tələblərinə qədər artırılması; təhlükəsizlik üçün tam şəraitin yaradılması; Kəlbəcər və Zəngilan rayonlarında çoxsaylı faydalı qazıntı yataqlarının və regional bölgənin təbii resurslarından istifadə: əlvan metallar, gips, əhəng daşı istehsalı üzrə birgə müəssisələrin təşkil edilməsi; rayon mərkəzlərinin sənaye potensialı və regionlarda Kəlbəcərin bir şəhər tipli qəsəbəsini (İstisu) və 145 kəndini, Zəngilanın 5 qəsəbəsini və 79 kəndinin mövcudluğunu nəzərə alınaraq sənaye-xidmət sahələrinin yaradılmasına kömək edə bilər.

Tarixi mədəniyyətə sahib olan şəhərləri tədqiq edərək deyə bilərik ki, şəhər əhalisinin ictimai həyatı geniş meydanlar və mərkəzi ərazilər ətrafında qurulmuşdur. Şəhər mərkəzi, əsasında şəhər sisteminin gələcəkdəki inkişafının xarakterini müəyyənləşdirir və planlaşdırma strukturunun yaradılmasına ilham verir. Müasir şəhərlərin inkişafı məhz şəhər ərazisini fərqli rayonlara bölməklə lokal ictimai mərkəzlərin təşkilinə şərait yaradır. Bu mərkəzlər, estetik dəyərə əlavə olaraq, təşkilati rolu öz üzərlərində götürərək planlaşdırma quruluşunun kompozisiyasını, nəqliyyat və piyada axınlarının istiqamətlərini idarə edir. Bu mərkəzlər özünəməxsus xüsusiyyətlər əldə edərək, şəhər

mühitində dominant və ikinci dərəcəli elementləri formalaşdıraraq, rayonun gələcəkdəki inkişaf kompozisiyasını müəyyənləşdirir.

Nəticələr. Bu tədqiqatda, Azərbaycanın Qarabağ bölgəsinin Kəlbəcər və Zəngilan şəhərlərinin müharibə və işğaldan sonra baş vermiş zərərləri və bunların nəticələrini anlamağa yönlənmişdir. Bu bölgələrin peyk şəkilləri və əhalinin siyahıya alınması məlumatları, uzun müddət müharibə keçmiş və əsarət altında olmağa məruz qalaraq dağıdılan ərazilərin dinamik urbanizasiya fenomenini monitorinq etmək üçün istifadə edilmiş sxemlər təklif edilir.



Şəkil 3. Kəlbəcər şəhərinin baş planı konsepsiyası. M1:25000, qeyri-yaşayış sahələrinin planlaşdırılması [22]



Şəkil 4. Zəngilan. Baş plan konseptual sxemi. M1: 25000 (müəlliflər sxemi). Azmərtəbəli yaşayış ərazisində müxtəlif funksional mühitlər üçün ətraflı planlaşdırma həlləri (https://www. skyscrapercity.com/threads/qədim-qarabağın-memarlıq-və-Şəhərsalma-konsepsiyası.2343655) [22]

Şəhər torpaqlarının genişləndirilməsi, ərazi relyefi, əhalinin artımı, miqrasiya və iqtisadi inkişaf kimi sosial amillərə görə müəyyən edilmişdir. Qarabağ bölgəsində, xüsusilə Kəlbəcər və Zəngilan şəhərlərində, yaşıl zonaların, bitki örtüyünün dağıdılması və xarabalıqlara çevrilməsinə baxmayaraq, abadlaşdırma və iqlim şəraitini nəzərə alaraq şəhərlərin inkişaf modeli təhlil edilmişdir. Bu tədqiqat, infrastrukturun dəyişikliyə məruz qalan faktorları və əhalinin məşğuliyyətini dəstəkləyən fəaliyyət sahələrinin inkişaf planını müzakirə edir. Əvvəlcədən 1905-ci ildən 1993, 2020-ci ilədək müharibə və işğalın təsiri altında olan bu bölgələrdə şəhərlərin sərhədlərinin pozulmasının, əhalinin münaqişələrə məruz qalmasının və müharibənin iqtisadiyyata təsir etdiyinin vurğulanması ilə şəhərin dağılma səbəbləri izah edilmişdir. Bu əsas məqamların nəticəsində 20 il ərzində şəhərlərin inkişafını və əhalinin artımını proqnozlaşdırmaq üçün müəlliflər tərəfindən bir konsepsiya təqdim edilmişdir. Bu konseptsiyada təqdim olunan təkliflər, şəhərlərin gələcəkdəki inkişafına işarə edir. Bu tədqiqat, 2020-ci ilə qədər müharibədə zərər görmüş ərazilərin bərpa edilməsi zamanı şəhərin infrastrukturunun yenidən qurulması məsələsini tədqiq edir. Bu

prosesdə, əhalinin inkişafının tənzimlənməsi ilə bərabər, şəhərin obrazının ənənəyə uyğun olması və müasir texnologiyalara diqqət yetirilmişdir. Əgər landşaft və təbii resursların müharibədən sonrakı vəziyyətini bərpa etmək və həyat keyfiyyətini qorumaq məqsədindədirsə, şəhərin gələcək planlarında bütün resursların qorunması və inkişafına diqqət yetirilməlidir. Ən əhəmiyyətli olaraq, hər bir şəhərin planlaşdırma konsepsiyası və infrastruktur inkişafının əhəmiyyətini nəzərə almaq, oxşar tədqiqat və təkliflərin Azərbaycanın digər şəhərlərinə, özəlliklə də çətin iqlim və həssas ekoloji cəhətləri olan, müharibə keçmiş ölkələrə tətbiq edilməsi vacibdir. Qarabağ şəhərləri üçün isə daha çox araşdırma aparmaq və dəqiq proqnozlaşdıran inkişaf modelləri təklif etmək labüddür. Müstəqil inkişaf modelləri tətbiq edərək, peyk şəkillər və tarixi məlumatlara əsaslanaraq şəhərlərin gələcəkdəki inkişafını proqnozlaşdırmaq mümkündür. Lakin, bu modellərdən istifadə edərkən müxtəlif inkişaf ssenarilərini araşdırmaq önəmlidir. Dağılan şəhərlərin yenidən qurulmasında əhalinin əvvəlki həyat tərzini qaytarmaq, şəhər mühitini və obyektləri əvvəlki assosiasiyalarına uyğun şəkildə bərpa etmək, yerli materialdan istifadəni tərəqqi etdirmək və əhali ilə yeni təklifləri müzakirə etmək əhəmiyyətlidir.

References

1.Archive of political documents of the Administrative Department of the Administration of the President of the Republic of Azerbaijan, fund 1, inventory 1, file 24, page 51.

2. Armina Pilav. Collective Documenting of Extreme Urban Transformations: Evidence of Urban Resilience During the War in Sarajevo (1992–1996), https://www.academia.edu/13350858/Collective_Documenting_of_Extreme_Urban_Transformations_ Evidence_of_Urban_Resilience_During_the_War_in_Sarajevo_1992_1996.p.17.

3. Aliyev T. Restoring the economy of Karabakh and Eastern Zangesur based on sustainable and inclusive development concepts.

4. Ashworth Gregory J., War and the City. 1991. DOI.https:// doi.org/ 10.4324/ 9780203409633. Pages 240).

5. Bagandov, Z. M., Война и город: восстановление из руин. DOI: https://doi. org/10.24411 /2658-3836-2021-41027, Acta Historica: труды по историческим и обществоведческим наукам, Т.4. август 2021, p.40-42

6.Caucasian Calendar-1917. Tiflis, 1916, pp.190-197

7.Engel B., Kozlov V.V. Town planning education in the changing times. Izvestiya vuzov. Investitsii. Stroitel'stvo. Nedvizhimost' [Proceedings of Universities. Investments. Construction. Real estate], 2016, no. 4 (19), pp. 190–201. (In Russian) DOI: 10.21285/2227-2917-2016- 4-190-201).

8.Flint, C. (2006). Cities, War, and Terrorism: Towards an Urban Geopolitics edited by Stephen Graham. https://books.google.az/books?id=PgXnROoye TwC&printsec= frontcover#v= onepage &q&f=false

9. Gafarova G. N., Mirseybli S. A. The fate of museums and monuments of Karabakh. Questions of museology, 2021. 12 (1): 131–145. https://doi.org/10.21638/spbu27.2021.113), DOI: 10.24412/9215-0365-2022-82-4-19-33.VOL 4, No 82 (82) (2022) The scientific heritage (Budapest, Hungary), ISSN 9215 — 0365.) p.131.

10. Graham, Stephen, Cities, War, and Terrorism: Towards an Urban Geopolitics. Annals of the Association of American Geographers, 96 (1), 216–218. doi:10.1111/j.1467-8306.2006.00510_8.x), ed. Malden, MA: Blackwell Publishing, 2004. xxiii and 384 pp., ISBN 1-4051-1575-0

11. Hein Carola, Japanese Cities in Global Context. Journal of Urban History 2016, Vol. 42(3) 463–476 (p.471).

12. Hirschmeier Johannes, Yui Tsunehiko, Routledge, The Development of Japanese Business 1600-1980, 1981, 402 pages, DOI: https://doi.org/10.4324/9780429429491

13. Kudryavtsev A.P., Travush V.I., Bondarenko V.M. and others. Architectural and urban planning safety of sustainable development. Izvestia [News], 2011, p. 56 (in Russian), 2. Olen'kov V. D., Gradostroitel'naia bezopasnost' [Urban planning safety]. M.: LKI, 2007.104 p.

14. Lynch, K. The image of the city / K. Lynch. – Twentieth Printime, 1990. – 194 p
15.Лихачев Д.С. Русское искусство от древности до авангарда. М., 1992.
16. Olen'kov V. D., Gradostroitel'naia bezopasnost' [Urban planning safety]. M.: LKI, 2007.104 p.
17.Пирогов, С.В. Контуры визуальных исследований города / С.В. Пирогов // Вестник Томского государственного университета. – 2013. – № 376. – С. 59 – 63.]
18. Ruban l.S., Zabuzov O.N.The evolutıon of cıtıes: from fortıfıed mılıtary settlements to "Smart cıtıes". Вопросы национальных и федеративных отношений .Выпуск 11(80). 2021. Том 11. DOI 10.35775/PSI.2021.80.11.011. p.3102-3110. səh. 3103.
19.Shcherbina E.V., Belal A.A., Salmo A. Historic centres of Syrian towns ruined by the war: restoration through urban planning. Vestnik MGSU [Monthly Journal on Construction and Architecture]. 2020; 15(5):632-640. DOI: 10.22227/1997-0935.2020.5.632-640 (rus.).
20. Щербина Е.В., Белал А.А., Салмо А. Градостроительное восстановление исторических центров сирийских городов, разрушенных войной // Вестник МГСУ. 2020. Т. 15. Вып. 5. С. 632–640. DOI: 10.22227/1997- 0935.2020.5.632-640). page 638.
21. Vasquez, J. A. 2009. The War Puzzle Revisited. Cambridge University Press, New York, 508 p.
22.Хренов, Н.А. Образы города в истории: психологический аспект смены парадигмы/ Общественные науки и современность. – 1995. – № 6-С. 150-161.
23. Yurenkova E.A. Representation of the visual images of the city of Ivanovo in postcards // Известия вузов. Серия «Гуманитарные науки». – 2014. – Вып. 5 (2). – С. 151–156.).
24. Younis, A. Urban security of urban objects affected as a result of terrorist attacks. Градостроительство и архитектура 2021, Т. 11, № 4,157 стр. DOI: 10.17673/Vestnik.2021.04.19

Məqaləyə istinad: Bəkirova T.Ş., Süleymanova S.Q. Dağılmış şəhərlərin inkişafında müasir yanaşmalar və visual obraz. Elmi Əsərlər/Scientific works, AzMİU, s. 12-21, N2, 2024
For citation: Bakirova T.S., Suleymanova S.K. Modern approaches and visual image in the development of destroyed cities. Elmi Əsərlər/Scientific works, AzUAC. p. 12-21, N2, 2024

Redaksiyaya daxil olma/Received 15.02.2024
Çapa qəbul olunma/Accepted for publication 17.04.2024